Azərbaycan Respublikasının Nazirlər Kabineti

**№ 141** **QƏRAR** **Bakı şəhəri, 1 aprel 2016-cı il**

# "Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı bəzi normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 dekabr tarixli 199 nömrəli qərarında dəyişikliklər edilməsi barədə

"Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 2015-ci il 18 dekabr tarixli 62-VQD nömrəli Qanununun tətbiqi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 14 yanvar tarixli 1689 nömrəli Sərəncamının 1.2-ci bəndinin icrasını təmin etmək məqsədi ilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Üzümçülük və şərabçılıq haqqında" Azərbaycan Respublikasının Qanunu ilə bağlı bəzi normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 24 dekabr tarixli 199 nömrəli qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 12, maddə 751; 2007, № 12, maddə 1336; 2009, № 1, maddə 32) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin qərarla təsdiq edilmiş "Şərabçılıq məhsullarının dequstasiyadan keçirilməsi və sənədləşdirilməsi Qaydaları"nın səkkizinci abzasına "laboratoriya arayışı" sözlərindən sonra "və həmin məhsulun tərkibində genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilməməsi barədə sənəd" sözləri əlavə edilsin.

2. Həmin qərarla təsdiq edilmiş "İstehsal mənşəyinə görə adlar verilən şərabların istehsalı və şərabçılıq məhsullarına adların verilməsi qaydaları barədə Əsasnamə"nin on doqquzuncu abzasına "laboratoriya arayışı" sözlərindən sonra "və həmin məhsulun tərkibində genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilməməsi barədə sənəd" sözləri əlavə edilsin.

***Artur RASİ-ZADƏ,***
***Azərbaycan Respublikasının Baş naziri***